# "Boş vaxtlarımda mütaliə etməyi xoşlayıram"

## London İmperial Kollecinin tələbəsi Günel Əzizova ilə söhbət



**1993-cü il martın 19-da Lerik rayonunun Çayrud kəndində anadan olub. Orta təhsilini Bakıda Binə qəsəbəsində yerləşən 117 nömrəli tam orta məktəbdə alıb. 2010-cu ildə Qafqaz Universitetinin kimya mühəndisliyi fakültəsinə (ingilisdilli) qəbul olub. 2014-cü ildə Mövlana Mübadilə Proqramının təqaüdçüsü olaraq təhsilini Türkiyənin İstanbul Texniki Universitetində (İTU) davam etdirmək şansı qazanıb. 2015-ci ildə Qafqaz Universitetinin kimya mühəndisliyi bölümünü fərqlənmə ilə bitirib. Hazırda "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Böyük Britaniyanın London İmperial Kollecində kimya mühəndisliyi ixtisası üzrə magistr təhsili alır.**

### "İxtisasımı çox sevirəm"

Orta məktəbdə əsasən texniki fənlərə qarşı marağım böyük olmuşdur. Lakin ən çox maraqlandığım fənn kimya idi. IX sinifdə orta məktəblər arasında keçirilən kimya olimpiadasının iştirakçısı olmuşam. İxtisas seçimimə gəlincə deməliyəm ki, kimya mühəndisliyi ixtisasını seçməyim son anda verdiyim qərar idi. İxtisas seçiminin bitməsinə cəmi 4 gün qalmış qərarımı vermişdim. Universitetdə ixtisas dərslərinə başlayanda kimya mühəndisliyi barədə kifayət qədər məlumatım yox idi. Lakin sonradan ixtisas dərslərimizi alıb, sənayedə təcrübə keçdikdən sonra marağım artmağa başladı. İxtisasımı çox sevirəm və kimya mühəndisliyini seçdiyimə görə heç vaxt peşman olmamışam.

### "Dövlət Proqramına qəbul olunmağım xəbərini çox sevinclə qarşıladım"

Qafqaz Universitetində biz tələbələrə qarşı müəllimlərimiz tərəfindən olan dəstək daim yüksək səviyyədə olmuşdur. Onlar həmişə bizə hədəflərimizi yüksək tutmağı öyrədirdilər. Xaricdə təhsil almaq qərarıma da Qafqaz Universitetində olan atmosferin səbəb olduğunu deyə bilərəm. Valideynlərim verdiyim qərarlarda hər zaman mənə dəstək olublar. 2015-ci il proqramın son ili olduğu üçün rəqabət güclü idi. Buna görə də hamı kimi mən də narahatlıq keçirirdim. Müsahibədən yaxşı keçmişdim və proqrama qəbul olunduğumu mənə 3 gündən sonra bildirmişdilər. Dövlət Proqramına qəbul olduğum xəbəri alanda, əlbəttə ki, çox sevinmişdim. Ailəm, dostlarım və müəllimlərim də bu xəbərə çox sevinirdilər.

Xaricdə təhsil almaq yüksək maddi vəsait tələb edir. Dövlətimiz tərəfindən biz tələbələrə olan bu yüksək diqqət və qayğı təqdirəlayiq haldır. Çünki ölkəmizin gələcəyi biz gənclərin əlindədir. Biz təhsil sahəsində özümüzü nə qədər inkişaf etdirsək, dövlətimizə bir o qədər dəstək ola bilərik. Tələbələrə olan bu yüksək etimad bizi daha məsuliyyətli olmağa səfərbər edir. Bunu həm də dövrün təhsil sahəsində mövcud olan qlobal çağırışları tələb edir. Dünyanın bütün ölkələrində olduğu kimi, ölkəmizin də təhsil sistemində peşəkar mütəxəssislərin hazırlanması istiqamətində ardıcıl iş həyata keçirilir. Bu çərçivədə uğurlu işlərdən biri kimi Təhsil Nazirliyinin həyata keçirdiyi xaricdə təhsil layihəsini göstərmək olar. İstedadlı gənclərə xaricdə təhsil almaq imkanı verən bu layihə xüsusi əhəmiyyətə malikdir.

### "Londona adaptasiya olmaq mənim üçün çətin olmadı"

London İmperial Kollecinin tələbə həyatı çox maraqlıdır. Yeni mühit, yeni müəllimlər, fərqli sistem, dünyanın müxtəlif yerlərindən tələbələrin olması yaxşıdır. Universitetə, Londona adaptasiya olmaq mənim üçün çətin olmadı. Burada insanlar mehriban və mədənidirlər. Boş vaxtlarımda mütaliə etməyi xoşlayıram. Mütaliə boş vaxtları dəyərləndirmək baxımından çox effektivdir, bu bizim dünyagörüşümüzü artırır, diskussiyalarda fərdlər arasında fikir mübadiləsini gücləndirir, düşüncə tərzini formalaşdırır. London beynəlxalq tələbələrin və turistlərin çoxluq təşkil etdiyi şəhərdir. Ali məktəbdə əcnəbi tələbələr çoxdur. Burada hamı bir-birinə kömək göstərməyə çalışır və hamı bərabərhüquqludur. Belə bir mühitin olması təhsil üçün çox yaxşıdır.

### "İmperialda təhsil səviyyəsi çox yüksəkdir"

Əsasən təbiət-texniki elmlər, mühəndislik, tibb və biznes sahəsində ixtisaslaşmış London İmperial Kollecinin əsası 1907-ci ildə qoyulub. Ali məktəb 2015-2016-cı tədris ilində dünyanın ən nüfuzlu universitetlərinin reytinq sıralamasında (QS World University Ranking, Times Higher Education World University Rankings ) 8-ci yerdə qərarlaşıb. London İmperial Kollecini seçməyimin başlıca səbəblərindən biri bu təhsil ocağının oxuduğum ixtisas üzrə dünya universitetləri arasında ilk onluqda olmasıdır. Digər ölkələrdən fərqli olaraq Böyük Britaniyada magistratura təhsili birillikdir. Bu da zaman baxımından çox yaxşıdır. Tədris proqramının intensiv olması tələbələr üzərində təzyiq yaratsa da, buna dəyər. İmperialda təhsil səviyyəsi çox yüksəkdir. Burada kimya mühəndisliyinin müxtəlif sahələri ilə bağlı araşdırmalar aparılır və biz tələbələrə seçim müxtəlifliyi verərək maraqlandığımız sahələrdə araşdırma aparmaq imkanı yaradılır. Məlumdur ki, kimya mühəndisliyinin tətbiq sahələri çoxdur. Kimya mühəndisliyi məzunu olaraq müxtəlif sənaye sektorunda işləmək imkanı var.

### "Müəllimlərin tələbələrə olan münasibəti yüksək səviyyədədir"

London İmperial Kollecində müəllimlərin tələbələrə olan münasibəti yüksək səviyyədədir. Ali məktəbin müəllimləri öz sahələrində peşəkar mütəxəssisdirlər. Təhsil müəssisəsində bir çox nüfuzlu professor çalışır ki, bu da mühazirə və araşdırmaların keyfiyyətini artırır. İmperialda hər bir tələbənin elmi-tədqiqatçılıq sərbəstliyinə və təşəbbüskarlığına böyük önəm verilir. Bu da tələbələri elmi tədqiqat işinə həvəsləndirir. Böyük Britaniyanın digər nüfuzlu ali məktəblərində olduğu kimi, burada da müəllimlərlə tələbələr arasında çox böyük sərhəd yoxdur. Müəllimlərin ofisləri tələbələrin üzünə hər zaman açıqdır. Tələbələr maraqlandığı sualları mühazirələr ərzində və ya mühazirədən dərhal sonra rahatlıqla müəllimlərə yönəldə bilərlər. Müəllimlər bizi diqqətlə dinləyib suallarımıza ətraflı cavab verməyə önəm verirlər.

Dünyanın ən reytinqli universitetlərindən birində təhsil alan tələbə kimi deyə bilərəm ki, xaricdə təhsil almaq tələbənin özünə inamını artırır və ona ətrafdakıların dəstəyi olmadan öz ayaqları üstdə dayanmağı öyrədir. Müxtəlif ölkələrdən olan digər tələbələrlə ünsiyyət yaratmağa, müxtəlif mədəniyyətlərlə tanış olmağa imkan verir.

### "Gözləntilərim özünü doğruldur"

Böyük Britaniyada olduğum müddətdə xaricdə təhsil almaq ümidlərimin özünü doğrultduğunu deyə bilərəm. Hazırda Avropanın və eləcə də dünyanın nüfuzlu elmi mühitində olmaqdan çox razıyam. Təbii ki, gözləntilərim özünü doğruldur. Xaricdə təhsil alan tələbələr həm də yaşadıqları ölkələrdə dünyanın hər yanından gəlmiş müxtəlif mədəniyyətlərin daşıyıcıları olan insanlarla ünsiyyətdə olurlar. Bu da bizə öz ölkəmizin tarixini, mədəniyyətini və adət-ənənələrini təbliğ etməyə böyük imkan yaradır. London İmperial Kollecində azərbaycanlı tələbələrin sayı əvvəlki illərlə müqayisədə getdikcə artır. Bu da respublikamızın xarici ölkədə tanıdılması və mədəniyyətimizin daha geniş müstəvidə təbliği baxımından geniş imkanlar açır. Bu il London İmperial Kollecində azərbaycanlı tələbələrin sayının ötən illərlə müqayisədə artması diaspora fəaliyyətimizdə güclü stimuldur. Buradakı tələbələrlə birlikdə bir sıra işləri görməyi planlaşdırırıq. İnşallah, bu işlərə nail ola biləcəyik.

Gələcək planlarıma gəldikdə demək istəyirəm ki, əsas arzum ən yüksək dərəcə ilə London İmperial Kollecinin məzunu olmaqdır. Təhsilimi başa vurduqdan sonra Vətənə dönərək Azərbaycan üçün faydalı layihələrdə iştirak etməyi, burada öyrəndiyim bilikləri reallaşdırmağı düşünürəm.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*
o.mustafayev@muallim.edu.az